# Pirşağı qəsəbəsində yeni səhiyyə kompleksi istifadəyə verildi

## Mərasimdə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva iştirak etdi



**Azərbaycanda səhiyyənin inkişafı və onun maddi-texniki bazasının gücləndirilməsi, səhiyyə müəssisələrinin yenidən qurulması, əhalinin sağlamlığının daha yaxşı təşkili, bu sahədə qabaqcıl texnologiyaların tətbiqi və yeni kadr potensialının hazırlanması Heydər Əliyev Fondunun və qurumun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətinin prioritet istiqamətlərindəndir.**

Fevralın 25-də Bakının Pirşağı qəsəbəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı surətdə yenidən qurulmuş 34 nömrəli şəhər səhiyyə kompleksi istifadəyə verildi.



Kompleksin açılış mərasimində iştirak edən Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanı mərasim iştirakçıları hərarətlə qarşıladılar, ona gül dəstəsi təqdim etdilər.

Mehriban Əliyeva rəmzi açılışı bildirən lenti kəsdi və kompleks ilə yaxından tanış oldu.

Azərbaycanın birinci xanımına məlumat verildi ki, 1980-ci illərdə ambulatoriya kimi fəaliyyət göstərən binada ötən ilin fevralında yenidənqurma işlərinə başlanılıb. Nəticədə, müasir avadanlıqla təchiz olunmuş tibb ocağının əlavə korpusu və təcili yardım binası inşa edilib. 39 otaqdan ibarət səhiyyə müəssisəsində əhaliyə yüksək tibbi xidmət göstərilməsi üçün bütün zəruri şərait yaradılıb. Müxtəlif tibb xidmətlərinin göstərildiyi səhiyyə kompleksində İtaliya, Türkiyə, Almaniya və Koreya istehsalı olan müasir avadanlıq quraşdırılıb.

Heydər Əliyev Fondunun prezidenti pediatr otağına, LOR kabinetinə baxdı. Bildirildi ki, burada xəstələrin müalicəsində LOR kombaynı adlanan yeni aparatdan istifadə ediləcək. Cərrah otağında anestezioloji qurğu, habelə əməliyyatlar zamanı nəbz və arterial təzyiqi ölçən kardiomonitor, elektroşok, həmçinin dərman preparatlarının yeridilməsi üçün tibbi infuzion və elektrosovurucu aparatlar var. Stomatoloji kabinet də səhiyyə müəssisəsinin digər otaqları kimi ən yeni avadanlıqla, o cümlədən müasir "Dentson" aparatı ilə təchiz olunub.

Kompleksin okulist otağında müayinə üçün "Tomey" aparatı quraşdırılıb. Müəssisədə elektrokardioqram, üçfunksiyalı ultrasəs müayinəsi aparatları da var. Kompleksdə lazer və maqnit terapiyası üçün fizioterapiya kabineti, peyvənd otağı fəaliyyət göstərir.

Azərbaycanın birinci xanımı "Heydər Əliyev Fondunun Sabunçu rayonuna hədiyyələri" adlı stendə baxdı.

Tibb işçilərini kompleksin açılışı münasibətilə təbrik edən Mehriban Əliyeva dedi: "Burada xəstələrin səhhəti ilə bağlı problemləri həll etmək üçün hər şey vardır. İndi siz gərək xəstələrə yalnız və yalnız yaxşı baxasınız. Ümidvaram ki, ölkəmizdə bütün tibb müəssisələri bu səviyyədə olacaqdır. Bilirsiniz, son illər çoxlu yeni xəstəxanalar, diaqnostika mərkəzləri tikilir, eyni zamanda, köhnələri təmir olunur. Bu, çox yaxşı haldır. Bu belə də davam edəcəkdir".

Kürdəxanı Sağlamlıq Mərkəzinin baş həkimi Esmiralda Abdullayeva çıxış edərək səhiyyə işçilərinə göstərdiyi yüksək diqqət və qayğıya görə Mehriban xanım Əliyevaya minnətdarlığını bildirdi. Paytaxt ilə yanaşı, bölgələrdə də Fondun təşəbbüsü ilə yeni səhiyyə obyektlərinin inşa edildiyini, tibb müəssisələrinin yenidən qurulduğunu vurğulayan E.Abdullayeva Pirşağı qəsəbəsindəki 34 nömrəli şəhər səhiyyə kompleksinin kollektivi adından əminliklə bildirdi ki, bundan sonra əhaliyə daha yüksək səviyyədə tibbi xidmət göstəriləcək.

Azərbaycanın birinci xanımı tibb müəssisəsinin kollektivi ilə xatirə şəkli çəkdirdi.

Sonra Mehriban xanım Əliyeva səhiyyə kompleksinin nəzdində fəaliyyət göstərən 14 nömrəli təcili yardım stansiyasının filialı ilə tanış oldu. Azərbaycanın birinci xanımı görülmüş işlərdən razılığını bildirdi və tövsiyələrini verdi.

# «Elektron Səhiyyə» internet portalının yenilənmiş versiyası istifadəyə verildi

Səhiyyə sahəsində informasiya texnologiyalarının tətbiqinin və əhaliyə təqdim olunan elektron xidmətlərin genişləndirilməsi məqsədi ilə 2008-ci ildən fəaliyyət göstərən "Elektron Səhiyyə" internet portalı Səhiyyə Nazirliyinin Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi tərəfindən yenilənib. Bu günlərdə istifadəyə verilən yeni versiyada Azərbaycanda və dünyada səhiyyə sahəsində "e-Səhiyyə" həlləri və yenilikləri, həmçinin Səhiyyə Nazirliyinin həyata keçirdiyi layihələr haqqında geniş məlumat verilir.

Yenilənmiş portalda təqdim olunan elektron xidmətlərdən "Elektron sağlamlıq kartı" sahibləri, uşaq poliklinikalarında qeydiyyatda olan uşaqların valideynləri, dövlət tərəfindən dərman preparatları pulsuz verilən imtiyazlı şəxslər, dövri müayinələrdən keçən, "Tibbi müayinə kartı" sahibi olan şəxslər və onların çalışdığı dövlət və özəl müəssisələrin rəhbərləri yararlana bilərlər. Belə ki, indi onların www.e-sehiyye.gov.az və ya www.esehiyye.az ünvanlı portalda qeydiyyatdan keçərək, elektron kartlarda və müvafiq informasiya sistemlərində yer alan məlumatları tibb müəssisələrinə getmədən əldə etmək imkanı var.

# Ana və uşaqların sağlamlığının qorunması üzrə monitorinqin nəticələri açıqlandı

"Himayədar Humanitar Tərəqqi" İctimai Birliyi Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirdiyi "Ana və uşaqlara göstərilən ilkin tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasına dəstək" adlı layihəsi çərçivəsində reallaşdırdığı monitorinqin nəticələrini açıqlayıb.

Son nəticədə ölkəmizdə ana və uşaq ölümü əmsalını azaltmağa yönəldilmiş monitorinq göstərib ki, ana və uşaq sağlamlığının qorunması Səhiyyə Nazirliyinin diqqətindədir və hökumət bu sahədə üzərinə düşən vəzifələrin icrası ilə məşğuldur. Müşahidələr bölgələrdə ana və uşaqların sağlamlığının qorunması sahəsində çalışan tibb işçiləri üçün ailə planlaşdırılması və reproduktiv sağlamlıq üzrə təlimlərin keçirildiyini, müxtəlif şəhər və rayonlarda doğuşayardım müəssisələrinin tibbi avadanlıqla təmin olunmasını təsdiqləyib. Yekun sənəddə Elmi Tədqiqat Pediatriya İnstitutunun reanimasiya və intensiv terapiya şöbələrinin müasir avadanlıqla təchizatı xüsusi qeyd edilir. Bununla belə, müşahidələr göstərib ki, ucqarlarda tibb müəssisələrinin bu sahədə təchizatının yaxşılaşdırılmasına böyük ehtiyac var.

BAŞ SPONSOR:
HB Co LTD
Sağlam gələcək - bizimlə gələcək!
Azərbaycan, Bakı - Az 1108 Atatürk pr-ti 3078 Tel.: (99412) 563 37 17, 563 41 01
Faks: (99412) 436 05 28 E-mail: hbcoltd@ultel.net www.hb-med.com